***Ağalar MİRZƏ***
***AMEA-nın Folklor İnstitutu***

# ŞİRVAN AŞIQ ŞEİRİNİN YÜKSƏLİŞİNDƏ MOLLA QASIM ƏNƏNƏLƏRİ

XII-XIII əsrlərdə Şirvan ədəbi intibah dövrünü yaşayırdı. Əksəriyyəti fars dilində yazılan möhtəşəm ədəbi abidələrin əsasında dayanan türk ruhu, düşüncəsi XIII-XIV yüzilliklərdə imperiya dil sədlərini qırıb özünü büruzə verməyə başladı. Həsənoğlu, Molla Qasım, İ.Nəsiminin yaradıcılığı məhz anadilli folklor qaynaqlarından su içir, yazılı ədəbiyyata dumduru mövzular verirdi.

Şirvanda aşıq şerinin inkişafı tarixi prinsiplərə söykənir. Bu ənənənin də əsasında çoxəsrlik folklor örnəkləri, eləcə də X-XI əsrlərin klassik şer yaradıcılığı dayanırdı. Həsənoğlu ilə başlayan anadilli ədəbiyyatımıza kimi zəngin folklor ənənəsi olan Şirvan aşıq sənəti də ilkin inkişaf qaynaqlarından birinə çevrilmiş, sonralar Anadolu ədəbi-mədəni, aşıq mühiti ilə qarşılıqlı əlaqədə öz inkişafını qura bilmişdir.

Bu vaxt Şirvanda aşıq şerinin inkişafını təmin edən tarixi şərait necə idi? Şirvan Qafqaz Albaniyasının demoqrafik cəhətdən ən əlverişli, qədim şəhərləri, əlvan təbiəti, və dövlətçilik ənənələri ilə zəngin bölgə olması ilə seçilir, burada yaşayanların etnik-mədəni inkişafında həmin faktorlar əhəmiyyətli rol oynayırdı. Qədim bayat tayfalarının izlərini bu gün də toponimlərində qoruyub saxlayan Şirvan sonralar folklorun ən dinamik və məna tutumlu janrı bayatıların da ilkin məskəni olmuşdur. Şirvan aşıq yaradıcılığında bayatıların xüsusi yeri olduğu, oxumaların emosional cığası kimi bayatılardan gen-bol istifadə aşıq şeri formalarında da öz əksini tapmışdır.

Səlcuqların Azərbaycana gəlişindən çox-çox əvvəl bu ərazilərdə türkdilli şerin ən müxtəlif formalarının yarandığını sübut edən faktlar sırasına bu dövrə kimi dastançılıq ənənələrinin mövcudluğunu daxil etmək olar. Bayatı, gəraylı, qoşma kimi ən populyar aşıq şeri janrlarında ilkin orta əsrlərdə son dərəcə nadir sənət nümunələrinin yaranması da burada aşıq yaradıcılığının qədimliyi, inkişaf mərhələlərinin sürəti, davamlılığı barədə məlumat verir. Molla Qasım yaradıcılığında təcnisin kamil nümunələrinin aşkar olunması, bu tarixi-coğrafi ərazinin həm də klassik aşıq məkanı kimi hələ çox-çox əvvəllər mövcudluğu haqda fikir söyləmək imkanı verir. Tədqiqatçılar Şirvanda aşıq şerinin tarixi səciyyəsini təhlil edərkən yazılı ədəbiyyat ənənələrinə daha çox üstünlük verirlər ki, bu da aşıq yaradıcılığının ilkin çağları haqqında bu vaxta kimi formalaşmış XVI əsr tarixi sərhəddini aşmaq cəsarətsizliyindən irəli gəlir. Lakin istər Anadolu, istərsə də Şirvan aşıq məktəbinin öyrənilməsi istiqamətində son tədqiqatlar bu müqayisələrə yenidən baxmağı tələb edir. Məsələni dolaşığa salan ikinci kamil saz şairi, el şairi, yaxud aşıq şeri şəklində yazıb yaradan

sənətkarların aşıq sənəti daşıyıcısı hesab edilib edilməməsi ilə bağlıdır. Bu məntiqdə ikitərəfli yanlışlıq var: a) el şairlərini aşıq sənətindən kənarda tutub (yəni onların saz çalıb oxuya bilmədiklərini iddia edənlər) yalnız bədii söz yaradıcısı kimi tanıdılması; b) Molla Qasım və onunla bir dövrdə yaşayıb yaradanların məhz aşıq yaradıcılığına xidmət göstərdiklərini etiraf etməklə aşıq sənətinin daha əski tarixinə şübhə ilə yanaşılması. Əvvəla, tarixin dərinliklərində yazıb yardan bu el şairlərinin aşıqlıq etmədiklərinə əsaslı bir dəlil yoxdur. Xəstə Qasımın, Tufarqanlı Abbasın, Molla Qasımın, Molla Cümənin bir el şairi kimi təqdim olunması bir çox hallarda qoşmalarında aşıq titulu olmaması faktı ilə əlaqələndirilir. Bir anlıq təsəvvür edək ki, Abbas Tufarqanlı, Miskin Abdal, Xəstə Qasım, Qurbani və b. yazılı ədəbiyyatın nümayəndələri kimi öyrənilir. Bu halda aşıq sənətindəki boşluğu təsəvvür etmək çətin deyil. Ən gözəl, say-seçmə gəraylı, qoşma, təcnis, divanilər bu zəngin irsdən təcrid olunur.

İkinci boşluq isə aşıq sənətinin əski çağlarını təsdiq edən saz şairlərinin tarixi xidmətlərini unutdurur. Belədə sual oluna bilər: əgər Azərbaycan aşıq sənəti XVI əsrdə Qurbani ilə başlayırsa, onda Molla Qasım və onun əsrdaşları (XIII-XIV) hansı mühitin təsiri ilə təcnis, qoşma, divani - bir sözlə,aşıq şerinin sınanmış şəkillərində yazıb yaradırdılar? Demək, Molla Qasım zamanında Şirvanda formalaşmış aşıq mühiti olmuş və Molla Qasım kimi sənətkarlar da bu mühitin inkişafında fəal iştirakçıya çevrilmişlər. Yeri gəlmişkən, bəzi mənbələrdə Molla Qasım kimi sənətkarlar şair, el şairi, bir sözlə, yazılı ədəbiyyatın nümayəndəsi kimi təqdim olunurlar. Əgər həqiqətən belə olsaydı Azəlbaycan anadilli ədəbiyyatına XIII əsrdə böyük töhfələr vermiş Molla Qasmın yaradıcılığı da digər klassik sənətkarların irsi kimi ətraflı öyrənilər, təbliğ olunardı. Əslindəsə ən kamil aşıq şeri nümunələrini yaradan Molla Qasımın ədəbi-estetik görüşləri əldə olunan nümunələr əsasında təhlil edilərsə, onun meydangir bir aşıq, el sənətkarı olduğu göz önündə canlanar. İ.Abbasov məhz bu aşıq-el sənətkarının ortaq sənətkarlıq cəhətlərini ümumiləşdirərək yazır ki, «sənət sinkretizminin improvizasiyasını bu və ya digər dərəcədə öz yaradıcılığında birləşdirən bütün bu orta əsrlər poeziya nümunələrinin ustad-yaradıcı, ifaçı aşıqlar, saz şairləri, həm də qələm şüərası, el şairləri adları ilə tanınan şəxsiyyətlər zəngin bir poetik təfəkkürün təmsilçiləri kimi vahid axarda birləşsələr də, öz yaradıcılıq üslubları, sənətkarlıq xüsusiyyətləri baxımından bir-birindən fərqlənmişlər»(1,s.9-10).

Şirvanda ilkin orta əsrlərdə və sonrakı çağlarda aşıq şerinin ən gözəl nümunələrini yaradan onlarla qüdrətli el sənətkarı olmuşdur: Molla Qasım Şirvani (XIII), Saleh Şirvani (XVII), Məlikballı Qurban (XVIII-XIX) və b. S.Qəniyev də haqlı olaraq Şirvan aşıq sənətinin Molla Qasım Şirvani yaradıcılığı ilə başlan- dığı işarə kimi ustad aşığın taleyi ilə bağlı maraqlı məqamları təhlilə cəlb edir. S.Mümtaz «Mola Qasım» və «Yunus İmrə» məqaləsindəki (2) faktlara istinadən Şirvan aşıq şerinin tarixi səciyyəsini verməyə çalışan

S.Qəniyev M.H.Təhmasibin bu mövzuda qələmə aldığı «Bir tarixi həqiqətin eposdakı izləri» məqaləsinə də münasibət bildirmiş, belə bir qənaətə gəlmişdir ki, Molla Qasım və Yunus İmrənin ədəbi təsirlənmələri olmuşdur(3,s.112).

Sonralar S.Mümtazın 1927-1928-ci illərdə çap etdirdiyi 2 cildlik «El şairləri» kitabını transliterasiya ilə yenidən nəşrə hazırlayarkən böyük ustadın Molla Qasımla bağlı qənaətlərini bir daha gözdən keçirdim. Şirvan aşıq məktəbinin mənəvi varislərindən olan Molla Qasımın da yaradıcılığından seçmələr toplanmış bu kitab zəngin folklor irsini, xüsusən, aşıq yaradıcılığının ən seçmə nümunələrini mühafizə etməsi ilə dəyərlidir. Bu mənbə ilə tanışlıqdan məlum olur ki, Molla Qasım yaradıcılığındakı monolit folklor konstruksiyası, mövzu, forma harmoniyası hələ XIII əsrdən də əvvəl belə vüsətli poetik nümunələr üçün ədəbi mühit mövcud imiş. Azərbaycan dilinin, ədəbiyyatının, incəsənətinin tarixindən söz açan akademik M.Arif yazırdı: «Herodot, Strabon, Arian, Ptolomey kimi yunan və Roma alimləri qədim Azərbaycanın dövlət quruluşu, şəhərləri, iqtisadiyyatı,bu ölkədə yaşayan xalqların dilləri, mədəniyyətləri, əfsanələri və nağılları haqqında qiymətli məlumatlar verirlər» (4,s.17).

XI-XII yüzilliklərdə klassik ədəbiyyatın vüsətini imperiya maraqları reallaşdırırdı. Lakin əsl xalq taleyindən və düşüncəsindən, həyat tərzi və problemlərindən bəhs edən realist poeziya ikinci qatda öz sənət ömrünü yaşayır, XIII yüzillikdən isə fərdlərin poetik nailiyyəti kimi sistemsiz şəkildə üzə çıxırdı. Baxın, XIII-XIV əsrdə Molla Qasım kimi qüdrətli sənətkar yetişir, sonrakı 300 ildə isə türk poetik ənənələrinin silsiləsi qırılır. Bu, təbii ki, ola bilməzdi. Sadəcə dövrün sərt qanun və qadağaları türk ictimai şüurunun daşıyıcısı olan aşıq yaradıcılığının,aşıq şerinin kanonlarında yaşayan türk milli şüurunun qarşısını almağa yönəlmiş tədbirlər faktların üstünə kölgə salırdı. Bütün bunlar deməyə və düşünməyə əsas verir ki, qadağalar sərtləşdiyindən müxtəlif zaman kəsimində ifaçı - improvizator sənətkarlar öz gündəlik fəaliyyət stixiyasını dəyişməli olmuş, məclislər, törənlər ənənəsini müvəqqəti olaraq hücrələrə çəkilib aşıq şeri janrında poetik nümunələr yaratmaqla keçirmişlər.Faktlardan məlum olur ki, belə el şairlərinin bir çoxu sazda normal çalıb oxusa da, aşıqlıq etməmiş, yaxud sonralar bu vərdişi tərgitmişdir. Məhz Molla Qasımın da taleyi belə qadağalardan keçmişdir. Molla Qasım haqqında ilk dəfə məlumat verən S. Mümtaz olmuş, «El şairləri» toplusunda onun iki-üç şerini dərc etdiyini bildirmişdir. (2,s.59-68). Lakin həmin kitabı təkrar çapa hazırlarkən burada təqdim olunan Molla Qasım ühvanlı şerin 5 olduğunu müəyyənləşdirdim. I cilddə «Təcnis» və «Sevdigim» adlı qoşma (5,s.203-204), II cilddə isə «Müəmma», «Gördüm» (gəraylı) və «Təcnis» olduğunu müəyyənləşdirdim (6,s.118-119).

Təcnislərin müxtəlif rədiflər üstə yazıldığını nəzərə alsaq («Haray», «Sənəm,sənəm»), Molla Qasımın «Beşi nə» rədifli ustadnamə qıfılbəndi, «Gördüm» gəraylısı, «Sevdigim» qoşması və təcnisləri müxtəlif xalq şeiri şəkillərində ən gözəl nümunələr yaratdığını təsdiq edir. Bəlkə də S.Mümtaz «2-3» dedikdə bu rəqəmlərin cəmini nəzərdə tutmuşdur. Sonralar diqqətsiz

tədqiqatçılar tərəfindən bir çox şerləri Xəstə Qasımın adına çap olunsa da, Molla Qasım elə bu beş şeri ilə də tarixə düşə bilmişdir. Çöl tədqiqatlarım zamanı məşhur balaban ustası Ağası Ağasızadədən toplayıb çap etdirdiyim «Üzhaüz» təcnisi də (7,s.28-29) S.Mümtaz toplamalarındakı nümunələrin ədəbi ab-havasını tamamlayır. «XIII-XIV əsrlərdə Şirvan ədəbi mühitində azərbaycandilli poeziyanın Molla Qasım kimi böyük nümayəndəsinin olması poetik fikir tarixinə, eləcə də Şirvan ədəbi mühitinin söz xəzinəsinə yeni nəzərlə baxmağı tələb edir. Bu mənada Şirvan aşıq mühiti Azərbaycan-türk şeri tarixində böyük rol oynamışdır (3,s.112).

Molla Qasıma kimi Azərbaycanda poetik ənənələr XI yüzillikdən sıçrayışlı inkişaf mərhələsini yaşamış, sufi görüşləri ilə məşhur olan Baba Kuhi ibn Bakuvinin şəxsində ədəbi məktəb səviyyəsinə yüksəlmişdir (8,s.219). Lakin klassik aşıq şeri ənənələri, forma və şəkilləri Molla Qasım yaradıcılığında öz kanonikliyi ilə diqqəti cəlb edir. Dövrünün kamil savad, bilik sahibi Molla Qasım dini-dünyəvi elmlərə vaqif olan el sənətkarı kimi vicudnamə uslubunda yazdığı müəmmasında beş, yeddi, on beş sayları üstə gəzişmələr edərək bir çox qaranlıq mətləbləri izah edərkən onun konkret zaman üçün fəlsəfi qənaətlərinin şahidi oluruq:

*Beş yaşından on beş rahə yetişdim,*
*Beşi atdım, beşi tutdum, beşi nə?*
*Əxtər oldum mehri-mahə yetişdim,*
*Talib oldum övliyalar beşinə.*

Ümumiyyətlə, düşüncə ilə əməlin, cismlə canın hərflər, saylar sistemində təcəllası, kontaminasiyası klassik ədəbiyyatda olduğu kimi, (İ.Nəsimi) xalq şerində də üslubi keyfiyyət şəklində özhünü göstərir. «Gördüm» gəraylısında isə Molla Qasımın fəlsəfi düşüncəsinin real və irreal çevrələrinin kəsişərək dünya adlı sirli məkanda insanın zərrə həqiqətlərinin ümman sınaqlarında əziyyətləri haqda yüksək poetik polemika ilə rastlaşırıq:

*Müqabildən güzar etdim,*
*Əcaib mərdüman gördüm.*
*Qaranqu torpaq altında*
*Yatar cismilə can gördüm.*

Təbii ki, əbədi dünya, möhlətli insan ömrü haqda belə total mistik düşüncə energiyası Molla Qasımla bir dövrdə yaşamış, fikir,düşüncə adamlarına təsirsiz qalmamış, türk dünyasının söz nəhənglərindən Yunis İmrə yaradıcılığında bu fikirlərin çiçəklənməsi faktı şifahi poetik ənənələrin funksionallığı hesabına baş vermişdir. Mətn paralelləri, tipoloji müqayisələr də sübut edir ki: a) bu iki sənətkar eyni dövrdə yaşamış (məzmun, forma, söz bankı paralellərində yaranan «Gördüm» rədifli gəraylı); b) bir-birindən təsirlənmiş (bu nümunədə Yunusun Qasımdan təsirləndiyi şəksizdir); ç) bir-birinə hörmət, yaxud ehtiyat etmiş (Y.İmrə: Dərviş Yunus,bu sözü əyri-büyrü söyləmə, səni siğəyə çəkər bir Molla Qasım gəlir), c) dövrünün ən parlaq poetik haləsini yaratmışdır:

*Əhədü-ləmyəzəl, vahidi yekta,*
*Salma məni gözdən ayağa, haray!*
*Müntəha qovruldum tənəli sözdən,*
*Pərvanə tək yandım a yağa, haray!*

Təcnisə bu gün də sənətkarın sınaq janrı kimi baxılır. Molla Qasım təcnisləri də təkcə sözün möcüzəsi statusuna qalxmaqla qalmır, həm də dövrün intellektual düşüncə kompleksinə çevrilməsi ilə bəşəri və fövqəlbəşəri dəyərlər haqqında tam təsəvvür yaradır. Düşüncəənginliyi, poetik vüsətin sonsuzluğu təkcə ərazi-məkan təsviri detallarıyla deyil, fikrin ilahi kodları kimi seçilmiş sözlərin almaz kimi cilalanmasında öz halal haqqını tapmış olur:

*Kabildən gəldin sən Dəməşq elinə,*
*Bülbül ərzi-halın demiş gülünə,*
*Şikəstə Qasımam, demiş gülünə,*
*Sən özün yetiş gəl, ay ağa, haray!* (9,s.12-14).

Prof. A.Nəbiyev yazır ki, Molla Qasımın nəşr olunmamış və əlyazmalarda qorunan təcnis, gəraylı, qoşma, deyişmə, ustadnamə, vicudnamələri bir neçə cəhətdən diqqəti cəlb edir. Birincisi, bu poetik nümunələrdə XIII-XIV əsr xalq şerinə məxsus dil, üslub, gözəl xitab, gözəlliyin tərənnümü ilə bağlı ənənələr qorunub saxlanmışdır. İkincisi, onlarda sufi dünyagörüş – bütün gözəlliklərin Yaradana məxsusluğu, dünyanın faniliyi, gözəlliyin Allahın vergisi olub verilən və alınan olması, insanın ən gözəl məkanını Allahın dərgahında görməsi ilə öz əksini tapmışdır (10, s.100). Anadilli şerimizin ilk qaranquşlarından sayılan Molla Qasım yaradıcılığının vüsəti Həsənoğlu həqiqətlərini təsdiqləməklə yanaşı, aşıq şerinin ən kamil nümunələrinin də XIII əsrdə mövcudluğunu bir daha təsdiq etdi. Molla Qasım faktı daha qədim mərhələlərdə bu inkişafın izlərini axtarmaq imkanı verir. Maraqlıdır ki, Molla Qasım yaradıcılığı daha erkən çağlarda aşıq şerinin sadə, ilkin formaları ilə deyil, nisbətən mürəkkəb və intellektual şəkilləri (təcnis, müxəmməs, vücudnamə) ilə zəngindir. Bu, bir tərəfdən Molla Qasıma kimi Şirvanda zəngin aşıq mühitinin olduğunu göstərirsə, sonrakı ədəbi vakuum, poetik boşluq, Azərbaycan poeziyasına yad təsirlərin, dil, ifadə baryerlərinin yüksəlişini yada salır. Təxminən 300 il sonra Qurbani qoşmalarında meydana çıxan kamillik, dil, forma bitkinliyi məhz Molla Qasım ədəbi sələfliyinin nəticəsi kimi başa düşülməlidir. Molla Qasımdan əlimizə gəlib yetişən nümunələrdəki mövzu həcmliliyi ilə forma kamilliyi bir daha sübut edir ki, XIII-XIV yüzillikdə həm aşıq şerinin, eləcə də İ.Nəsiminin şəxsində yazılı şerimizin intibah mərhələsinə zəmin hazırlanmışdır.

## ƏDƏBİYYAT

1.Azərbaycan aşıqları və el şairləri. I c. Bakı,1983.
2.İnqilab və mədəniyyət jurn.№1. Bakı,1929.
3. Qəniyev S. Şirvan folklor mühiti. Bakı, 1997.

4.Azərbaycan ədəbiyyatı tarixi.Bakı, 1971.
5. Mümtaz S. El şairləri. 1c. Bakı 1927.
6. Mümtaz S. El şairləri.II c. Bakı,1928.
7. Mirzə A. Şirvana binə gəlləm.Bakı, 2004.
8. Ашурбейли С. Государство Ширваншахов. Баку,1993.
9. Mümtaz S. El şairləri. Transliterasiya, ön söz, şərh və izahlar A.Mirzənindir. Bakı, 2005.
10.A.Nəbiyev. Azərbaycan aşıq məktəbləri. Bakı, 2002.

**Агалар Мирза**

**Роль традиций Молла Гасыма в развитии ширванского ашыгского стиха**

**РЕЗЮМЕ**

В статье исследуются особенности творчества сыгравшего особую роль в развитии ширванского ашыгского стиха Молла Гасыма на основе собранных в последнее время его теджнисов, гошма и герайлы. Молла Гасым также изучается, как современник Юниса Эмре, уводящего ашыгское творчество на 300 лет вперед.

**Aqalar Mirza**

**The part of Molla Qasim's traditions in the evolution of Shirvan ashuq's**

**SUMMARY**

In the article are researches the peculiarities of creation of Molla Qasim, who took big part in the evolution of Shirvan ashug's schools on the base of collected in last time his tecnis, goshma and gerayli. Molla Qasim also researches as the contemporary of Yunus Emre, who took the ashug's creation of 300 years ago.